BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Sosial-siyasi elmlər seriyası 2014*

# İQTİSADİYYAT

**UOT 339.9.**

## SSRİ-NİN SƏNAYELƏŞMƏSİNDƏ BAKI NEFTİNİN ROLU

**Ü.ƏLIYEVA**
***AMEA–nın Fəlsəfə və Hüquq institutu***
***u_lka_r@yahoo.com***

*Məqalədə I dünya müharibəsindən sonraki illərdə baki neftinin keçmiş ssri-nin sənayeləşməsində oynadiği roldan bəhs edir*

**Açar sözlər:** Bakı nefti, avropalılar, Sovet İttifaqı

Birinci dünya müharibəsindən sonra Yaxın və Orta Şərqdə neftlə bağlı siyasi və iqtisadi mübarizə daha da kəskinləşdi. Qeyd edək ki, müharibədən əvvəl rus nefti beynəlxalq iqtisadi bazarların ən vacib elementlərindən biri hesab olunurdu (1, 260-261). Rusiyada oktyabr inqilabının qələbəsindən sonra Bakı nefti üzərində mülkiyyət hüququ yeni sosialist dövlətin səlahiyyət dairəsi elan olundu. Bakı nefti üzərində mülkiyyət hüququnda baş vermiş əsaslı dəyişiklik Bakı neft mədənlərini istismar edən xüsusi şirkət sahiblərini ciddi düşündürürdü və əcnəbilərə məxsus bu şirkətlər Bakı neft mədənləri üzərində öz yurisdiksiya hüquqlarını qorumaq üçün yollar axtarmaqda idilər.

Azərbaycan Xalq Cümhuriyyəti yaradıcılarından biri olan Məmməd Əmin Rəsulzadə “Azərbaycan Cümhuriyyəti” kitabında belə yazırdı: “Azərbaycanın həqiqi sərvəti olan neft Rusiyanın inhisarına alınıb, bundan yalnız bir qismi Azərbaycanın daxilindəki istehlak üçün və Türkiyə və İran bazarına ixrac edilmək üzrə Azərbaycan hökumətinin öz sərəncamına verilirdi. Hətta bu miqdarın təyini belə Moskva Baş yanacaq komitəsinin icazəsi ilə olmalı idi. Demək ki, Moskvanın iradəsi hasil olmadan müstəqil Azərbaycan kəndlisi öz evində yandıracaq lampanın işığını istədiyi kimi istifadə edə bilməzdi. Həm həqiqətən Bakı həbsxanasında olduğum zaman, qəzetlərdə Bakı yaxınlığındakı qəzalardan birində kəndli üçün təsis olunan gecə məktəblərinin neft olmadığından dolayı işləmədiyini oxumaqla heyran qalmışdım. Fəqət, buna baxmayaraq öz fikirlərini gizli saxlayan ruslar,

Bakıda çıxan kommunist mətbuatı və o sırada təşkil olunan Azərbaycan sovetlər konqresində söz söyləyən həyasız xətiblər niyyətlərini Azərbaycan istiqlalını möhkəmləndirmək istədikləri şəklində göstərmişlərdi" (2, 74).

Bakı nefti ilə bağlı ekspansiya siyasətini həyata keçirmək Böyük Britaniyanın xarici siyasətinin əsas istiqamətlərindən biri idi. Bu məqsədi reallaşdırmaq üçün hətta ordu hissələrindən bir vasitə kimi istifadə olunurdu. Ingilis general Denstervelin ekspedisiya korpusunun Bakıya ezam olunması da bu məqsədə xidmət edirdi.

12 avqust 1918-ci ildə İran Azərbaycanında yerləşən Denstervilin hərbi birləşməsi Bakıya çatdısa da, türklərin güclü təzyiqi nəticəsində geri çəkilməli oldu (3, 89).

Bakı nefti ilə ciddi maraqlanan dövlətlərdən biri də Fransa idi. 1920-ci illərin əvvəllərində Fransa hakim dairələri, birinci növbədə "Bakı nefti" naminə Türkiyə ilə yaxşı münasibətlər qurmaq "arzusunda idi"( 4, 60).

ABŞ-ın Sovet Azərbaycanına loyal münasibətdə olmasına baxmayaraq onun da Bakıda müəyyən mənada iqtisadi marağı var idi (4, 60).

Ölkədə baş verən hadisələrə baxmayaraq neftlə maraqlanan, özü də təkcə maliyyə resursları ilə deyil, həm də öz milli mənsubluqları ilə Nobellərin daha çox diqqətini çəkən, Amerikanın siyasi dəstəyini söz verən digər bir tərəf də var idi. Bu "Standart oil of New Jersey" idi. Məhz bu zaman, çoxsaylı ciddi dəyişikliklərdən sonra Nobellərin hələ XIX əsrin 90-cı illərində reallaşdırmağa çalışdıqları amerikan və rus neftinin birləşdirilməsi arzusunu həyata keçirməyə imkan yaranmışdı. "Standart oil of New Jersey" də öz növbəsində bu əməliyyatda çox maraqlı idi. Onlar yaxşı dərk edirdilər ki, Aralıq dənizi ətrafındakı bazarları Birləşmiş Ştatlardansa rus nefti ilə təchiz etmək daha ucuz başa gələ bilər. Birinci Dünya Müharibəsi ərəfəsində Rusiyadan neftin ixracı dayandırılmışdı, ancaq əgər neft hasilatı bərpa edilərsə və yeni texnologiya tətbiq olunarsa, o bir gün Amerika neftini Avropa bazarından çıxarda bilər. "Standart oil" isə bu nefti rəqiblərinin əlində görməkdənsə, Rus nefti haqqında özünün həlledici söz deməyini üstün tuturdu. Şirkətin rəhbərlərindən olan Tiql qeyd edirdi ki, "Mənə elə gəlir ki, indi risq edib Bakı neftinə sərmayəmizi qoymaqdan başqa yolumuz yoxdur. Əgər biz bunu indi etməsək Rusiyadakı neft hasilatına hər hansı bir təsir imkanından məhrum olacağıq" (1, 261-262).

Baxmayaraq ki, Nobellər çox güman ki, artıq sahibi olmadıqları mülkiyyəti satmağa çalışırdılar, "Standart oil of New Jersey" intensiv danışıqlara başladı. Bu risq 1920-ci ildə bolşeviklərin yenidən Bakını işğal edib, neft sahələrinin milliləşdirməsi ilə daha da real oldu. Bu istiqamətdə atılan addımlardan biri də Bakıda işləyən Böyük Britaniya mühəndislərinin həbs edilməsi oldu, bəziləri isə Nobellərin casusu kimi mühakimə edildilər. Ancaq bu sövdələşmə "Standart oil of New Jersey" üçün o qədər cəlbedici idi ki, bütün bunlara baxmayaraq onlar danışıqları davam etdirirdilər. Milliləşdirmədən təxminən üç ay sonra 1920-ci ilin iyul ayında müqavilə imzalandı. Beləliklə, "Standart oil" Nobellərin Rusiyadakı neft mülkiyyətinin yarısından çox aşağı bir qiymətlə sahib oldu. Bununla

da şirkət Rusiyadakı neft hasilatının təxminən üçdə birinə, neft emalının 40%-nə, Rusiyanın daxili neft bazarının isə 60%-nə sahib oldu (1, 262).

Azərbaycan Sovet hakimiyyəti bərqərar olandan dərhal sonra Bakı neftinin Rusiyaya pulsuz-parasız daşınılmasına start verildi. Beləliklə, Azərbaycan Sovetləşmədən sonra 1920-ci il 30 apreldən 2 mayadək Rusiyaya 1,3 mln pud neftlə dolu 12 paroxod göndərilmişdi. Həmin ilin may ayında aparılan neftin miqdarı 15 mln puda, iyun ayında isə artıq 21,2 mln puda çatdırılmışdı. Neft sənayesi yenidən milliləşdirilmişdi. 1921-ci ildə neft hasilatı ən aşağı həddə düşdü, cəmi 2,4 mln ton oldu. Azərbaycan neftinin əhəmiyyətini çox yaxşı başa düşən Sovet hökuməti neft sənayesinin bərpası və inkişafı üçün aktiv formada tədbirlər həyata keçirirdi (5, 11-12).

V.İ.Lenin özünün "Rusiyada kapitalizmin inkişafı" əsərində Bakı neft sənayesinin sürətlə inkişaf etdiyini göstərərək yazırdı:

"Cənubla bərabər Qafqazı da xatırlatmaq lazımdır, zira Qafqazda da mədən sənayesi islahatdan sonrakı dövrdə böyük bir sürətlə artmışdır. Neft hasilatı 1860-cı illərdə bir milyon puddan da az (1865-ci ildə 557 min pud) olduğu halda, 1870-ci ildə 1,7 milyon pud, 1875-ci ildə 5,2 milyon pud, 1880-ci ildə 21,5 milyon pud, 1885-ci ildə 116 milyon pud, 1890-cı ildə 242,9 milyon pud, 1895-ci ildə 384,0 milyon pud və 1902-ci ildə 637,7 milyon pud olmuşdur. Neftin demək olar ki, hamısı Bakı quberniyasında hasil edilir, buna görə də Bakı şəhəri "əhəmiyyətsiz" bir şəhər ikən dönüb Rusiyada 112 min əhalisi olan birinci dərəcəli sənaye mərkəzi olmuşdur" (6, 7).

Azərbaycanda neft sənayesinin inkişafı təkcə Azərbaycan üçün deyil, həm də digər Sovet ölkələri üçün çox əhəmiyyətli idi. Çünki neft yeni yaradılmış Sovetlər üçün həm iqtisadiyyatın, həm də sənayenin inkişafı üçün mühüm şərt idi. Qeyd etmək lazımdır ki, iqtisadiyyatın və xüsusi ilə də sənayenin inkişafı isə özü-özlüyündə bütün digər sahələrin inkişafı üçün də zəmin yaradırdı.

V.İ.Lenin 1920-ci il aprel ayının 29-da şüşə-çini istehsalı fəhlələrinin Ümum-Rusiya qurultayındakı nitqində Sovet Rusiyasının təsərrüfatının bərpası işində Bakı neftinin oynayacağı roldan bəhs edərək demişdi: "...Bakıdan aldığımız bir xəbər göstərir ki, Sovet Rusiyasının vəziyyəti yaxşılaşmaqdadır; sənayemizin yanacaqsız qaldığı bizə məlumdur, indi isə xəbər almışıq ki, Bakı proletariatı hakimiyyəti öz əlinə almış və Azərbaycan hökumətini yıxmışdır. İndi bizim elə bir iqtisadi bazamız vardır ki, bu bizim bütün sənayemizi canlandıracaqdır" (sitat götürülüb: 7, 6-7). Bakıda son vaxtlara qədər satılmamış bir milyon pud neft var, hətta Nobel bizimlə bu neftin Sovet Rusiyasına çatdırılması haqqında danışıqlar aparmağa cəhd edirdi. Beləliklə, bizim nəqliyyatımız və sənayemiz Bakı neftindən çox əhəmiyyətli yardım alacaqdır (8, 110)

İrəlidə qeyd olunduğu kimi, Sovet hökumətinin gördüyü ilk mühüm tədbir neft sənayesinin milliləşdirilməsi oldu. Azərbaycan Kommunist Partiyası 1920-ci il may ayının 5-də toplanmış birinci açıq konfransında ağır sənayenin bütün sahələrinin, birinci növbədə isə neft sənayesinin milliləşdirilməsini irəli

sürdü (7, 8). Sovetlər sənayenin, xüsusilə də, neft sənayesinin milliləşləşdirilməsini elə qələmə verirdilər ki, guya bir neçə sahibkar bütün sənayeni əlinə keçirib, xalqa isə heç nə vermir. Neft də milli sərvət olduğundan milliləşdirilməlidir, bununla da neftdən gələn gəlirlər əhalinin bütün təbəqələri arasında bərabər şəkildə bölünməlidir. Fikir düzgün olsa da, Sovetlərin məqsədləri tam fərqli idi. Sovet Rusiyası bəyan edirdi ki, onlar nefti inhisarçı və istismarçı kapitalistlərin əlindən alaraq bütün xalqın mülkiyyətinə çevirmək niyyətindədirlər. Əslində isə təbii ki, tamamilə fərqli bir proses baş verdi. Milliləşdirilərək Azərbaycan xalqının rifahı üçün sərf olunmalı olan neft yığılıb Rusiyaya daşınırdı və beləliklə də Azərbaycanın bu milli sərvəti Sovet hökumətinin qurulmasına və iqtisadi inkişafına sərf olundu.

16 mart 1921-ci ildə çıxışı zamanı V.İ.Lenin Bakıda olan konsessiya məsələsinə də toxunmuşdu. O, qeyd edirdi ki, "konsessiyasız biz yüksək avadanlıqlarla təchiz edilmiş müasir kapitalist texnikasının köməyini gözləyə bilmərik. Bu avadanlıqlardan istifadə etmədən dünya iqtisadiyyatı üçün müstəsna əhəmiyyətə malik olan, bizim istehsalın təməlini təşkil edən neft hasilatını düzgün qura bilmərik. Biz hələ ki konsessiyalar üzrə bir dənə də olsun müqavilə imzalamamışıq, amma imzalamaq üçün nə lazımdırsa hər şey edəcəyik. Siz qəzetdə yeni açılan Bakı-Tiflis neft kəməri haqqında oxumusunuz? Siz tezliklə Batuma qədər olan belə bir neft kəməri haqqında da oxuyacaqsınız. Bu bizə dünya bazarına çıxmağımıza imkan verəcək. Bütün işlər iqtisadi vəziyyətin yaxşılaşdırılmasına, respublikamızın texniki təchizatının gücləndirilməsinə, məhsullarının sayının artırılmasına, bizim işçilər üçün istehlak və qida məhsullarının sayının artırılmasına gətirib çıxaracaqdır. Bu məsələdə istənilən yüngüllük bizim üçün böyük əhəmiyyətə malik olacaqdır. Məhz buna görə də biz Bakı və Qroznunun bir hissəsinin güzəştə getməyə qorxmuruq. Qroznının dörddə bir hissəsini və Bakının dörddə bir hissəsini güzəştə getməklə, yerdə qalan dörddə üç hissədə kapitalizmin qabaqcıl texnikasından istifadə edə biləcəyik. Hal-hazırda bizim bunu başqa yolla etməyimizə gücümüz yoxdur. Bizim iqtisadiyyatımızın vəziyyətini bilən hər kəs bizi başa düşəcək" (8, 138-139).

Azərbaycan neft sənayesini yüksəltmək, bunun əsasında da xalq təsərrüfatının yeni sahələrini yaratmaq vəzifəsi həmin dövrdə partiya və hökumətin qarşısında duran ən təxirəsalınmaz məsələlərdən biri idi (7, 8).

Azərbaycan neft sənayesinin bərpa və inkişaf etdirilməsi məsələsi həmişə V.İ.Leninin diqqət mərkəzində dururdu. O, bütün qüvvələrin səfərbərliyə alınaraq, Azərbaycan neft sənayesinin yüksəldilməsi işinə yönəldilməsini partiya və sovet təşkilatlarından ciddi surətdə tələb edirdi. Həmin dövrdə Sovet Rusiyasının özünün də təsərrüfat vəziyyətinin ağır olmasına baxmayaraq, Bakı neftçilərini ərzaqla, geyimlə, neft sənayesini isə ixtisaslı kadrlarla, avadanlıq və materiallarla təmin etmək üçün hər cür tədbirlər görürdü (7, 10).

1921-ci ilin aprelin 18-də V.İ.Lenin Azərbaycan Neft Komitəsinə xaricdə neft məhsullarını avadanlığa, paltar və ərzağa dəyişdirmək hüququ verilməsi

barədə göstəriş verdi. O dövrdə Ali İqtisadi Şuranın sədri vəzifəsində çalışan M. D. Hüseynov demişdi ki, bu qərar olmasaydı bizim neft sənayemiz süquta uğrayardı (sitat götürülüb: 4, 170). Qeyd etmək lazımdır ki, o illərdə nəinki Azərbaycanın bütövlükdə daha sonra SSRİ-yə daxil olacaq digər ölkələrin hər birində sənayenin bütün sahələri dayanmışdı. Yeni avadanlıq yalnız xaricdən alına bilərdi ki, bunun üçün də külli miqdarda maliyyə resurslarına ehtiyac var idi. Birinci Dünya Müharibəsi, eyni zamanda dövlətlərin daxilində gedən çəkişmələr və mübarizələr səbəbindən təbii ki, nəinki xaricdən çox əhəmiyyətli və baha qiymətə olan avadanlıqları almaq üçü zəruri olan maliyyə vəsaitləri yox idi. Ona görə də nefti satmaqdan daha çox onu lazımi avadanlıqlara və daxili tələbat mallarına barter üsuku ilə dəyişdirmək ehtiyacı yaranmışdı. Beləliklə, Sovet Rusiyasında neftdən istifadə edərək SSRİ-ni yaratmaq və inkişaf etdirmək məqsədi ilə xarici ticarət əlaqələrinin həyata keçirilməsində barter üsuluna üstünlük verildi.

Xariclə müvəffəqiyyətlə ticarət aparılması bütün Zaqafqaziya üçün vahid və birləşmiş xarici ticarət orqanı yaradılmasını tələb edirdi. Əlavə edək ki, o illərdə hər bir respublikanın öz müstəqil formada fəaliyyət göstərən xarici ticarət idarəsi var idi, onlar birləşdirilmədiyinə və RSFSR Xalq Xarici Ticarət Komissarlığı ilə sıx əlaqədə fəaliyyət göstərən ümumi Zaqafqaziya orqanına tabe olmadıqlarına görə o dövrdə sərfəli ticarət edə bilmirdilər. Ancaq eyni zamanda xarici ticarət əlaqələrində layiqli yer tutan və həlledici rol oynayan Azərbaycan Respublikasının iqtisadi və milli mənafeləri heç də həmişə ədalətli şəkildə nəzərə alınmırdı (4, 170).

1920-ci illərdə yeni iqtisadi siyasət şəraitində neft sənayesinin idarə olunması xüsusi əhəmiyyət kəsb edirdi. Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin və Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarına uyğun olaraq 1921-ci ilin sentyabr ayında köhnə “Azneftkom” müstəqil “Azərneft” trestinə çevrilərək təsərrüfat hesabına keçirildi. Bu yenidənqurma neft sənayesini təsərrüfatın təşkili cəhətdən möhkəmləndirməyi, onun maddi-texniki təchizatını və neftçi fəhlələrin əməyinin ödənilməsini yaxşılaşdırmağı təkan verdi (4, 106).

Azərbaycanda 1921-1925-ci illərdə daxili dövlət ticarət təşkilatları başlıca olaraq dövlət trestlərindən və SSRİ dövlət ticarət təşkilatları, habelə trestlərinin Azərbaycandakı idarə və müvəkkilliklərindən ibarət idi. Həmin dövrdə Azərbaycanda ticarət işinə, xüsusilə dövlət ticarəti orqanlarının fəaliyyətinə Respublika Xalq Sənaye və Ticarət Komissarlığı (XSTK) rəhbərlik edirdi (9, 17).

1923-cü ilin aprel ayının 1-də Azərbaycanın ən iri istehsal birliyi olan “Azneft”in məhsulunu satmaq üçün ayrıca Azərbaycan neft ticarəti birliyi yaradıldı. Bu idarənin əsas vəzifəsi inhisar əsasında Zaqafqaziyanı (Xalq Komisarları Sovetinin neft fondunun bir hissəsi ilə) neft məhsulları ilə təmin etmək idi. Azərbaycan neft ticarəti birliyi bir sıra səmərəli fəaliyyət göstərə bilən struktur təsis etməklə ağ neftlə alqı-satqı etməyə keçid başlandı. Bu idarə rayonlarda xüsusi bazalar açıb ticarət fondunun 92,3 faizini ictimai ticarətin əlində topladı

və bununla da ağ neftin satış qiymətini xeyli aşağı saldı (9, 18).

Azərbaycan Xarici Ticarət Komissarlığı eyni zamanda qonşu İranla da ticarət əlaqələrinin bərpa və inkişaf etdirilməsinə çalışırdı. Belə ki, 1921-ci ilin mart ayında İrana 3 ticarət ekspedisiyası göndərilmişdi. Həmin ekspedisiyalar üçün komissarlığın ayırdığı məhsullar içərisində 250 min pud ağ neft də var idi (9, 88).

Şimali İran üçün əgər hətta Bakı-Batum neft boru kəmərindən yox, başqa bir yol olsaydı belə ticarət və alqı-satqı həddindən artıq baha başa gələrdi. İranın beş şimal vilayəti Fars körfəzindən 1120 km-dən artıq bir məsafədə yerləşirdi və əlbəttə ki, heç bir şirkət bu qədər uzaq bir məsafəyə o dövrün texniki vasitələri ilə neft kəməri çəkmək işini öz öhdəsinə götürməzdi. İranın cənubunda fəaliyyət göstərən Anglo-persian (İngilis-fars) neft şirkətindən neft məhsullarının daşınması çox çətin olduğu və olduqca baha başa gəldiyi üçün 1933-cü ilə qədər İranın daxili tələbatı üçün kerosin və benzini SSRİ-dən idxal etməyə üstünlük verilirdi (3, 93).

Qeyd etmək lazımdır ki, ağır zəhmətlə çıxarılan milli sərvətimizdən, - "qara qızıl"dan respublikanın ehtiyacı üçün cüzi "pay" ayrılırdı. Belə ki, 1923-cü ildə Azərbaycan SSR Xalq Komissarlar Sovetinin sərəncamında qalan və respublika büdcəsinə daxil olan neft fondu neft istehsalının cəmi on faizini təşkil edirdi (sitat götürülüb: 4, 136).

Nəriman Nərimanov Moskvaya göndərdiyi məktub və teleqramlarında dəfələrlə belə vəziyyətin dəyişməsini tələb etmiş, hər vasitə ilə respublika büdcəsinə ayrılan məbləğin artırılmasına çalışmışdı. Lakin bu məsələlərin həllinə Azərneftin ruspərəst və şovinist ruhunda tərbiyə almış rəhbərliyi bu problemə heç bir maraq göstərmir, əksinə bir növ məsələnin həllinə mane olurdu. N. Nərimanov Azərneftin sədri A.P.Serebrovskinin diktator, amirlik hərəkətlərini tənqid edərək edirdi ki, o, "Azərnefti monarxiyaya çevirmişdir". A.Serebrovskinin və onun tabeliyində olan insanların antiazərbaycan elementlərlə ayrı-seçkilik yaradan rəhbərlik xətti Azərbaycan neftçilərinin haqlı narazılığına səbəb olsa da, onların şovinist əhval-ruhlu idarəçilik sistemi Mərkəzi də təmin etdiyi üçün dəyişməz qalırdı (4, 136).

Bakı neft mədənlərinin dirçəldilməsi nəinki bütün ölkəni maye yanacaqla təmin etməyə, eyni zamanda külli miqdarda gəlir gətirən neftin ixracının fasiləsiz artmasına imkan yaratdı. 1924/25-ci illərdə Bakı neftinin ixracı 1913-cü ildəki səviyyəni ötdü. Neft məhsullarının ixracı öz xüsusi çəkisinə görə SSRİ-nin ümumi ixracatında ikinci yeri tuturdu. Yalnız 1924/25-ci ildə neft ixracından əldə edilən 65,4 mln manat xalis gəlirin 38,5 mln manatı Azərbaycan neftinin payına düşürdü (sitat götürülüb: 4, 135).

Azərbaycan neft sənayesinin bərpası bütövlükdə Zaqafqaziya və SSRİ-nin xalq təsərrüfatı üçün çox əhəmiyyətli idi. 1925-ci ildə neft sənayesinin məhsulu Zaqafqaziya Sovet Federativ Sosialist Respublikaları (ZSFSR) sənayesinin bütün ümumi məhsulunun yarısını təşkil edirdi. Ölkənin başlıca yanacaq bazası olan Bakı bütün İttifaqda istehsal olunan neftin 67%-ni verirdi (4, 135).

Azərbaycan neftinin Ümumittifaq, "beynəlmiləl" əhəmiyyətini daim vurğulayan Sovet hökuməti, ilk növbədə neft sənayesini maliyyələşdirirdi. Sənaye cəhətdən geri qalmış Azərbaycan qəzaları Mərkəzi hökuməti qətiyyən maraqlandırmırdı. 1926/27-ci ildə SSRİ neft sənayesi üçün nəzərdə tutulmuş 150,5 milyon manat ümumi məbləğin yarıdan çoxu (83 milyon manat) SSRİ Əmək və Müdafiə Şurasının 24 dekabr 1926-cı il tarixli qərarı ilə Azərneft üçün ayrıldı (4, 147).

Partiyanın XV və Zaqafqaziya partiya təşkilatlarının V (1927-ci il 9 noyabr) qurultayları direktivlərinə uyğun tərtib edilmiş ZSFSR-in beşillik planını V Zaqafqaziya Sovetlər qurultayı (6-11 may 1929-cu il) təsdiq etdi. Planda Azərbaycan neft sənayesinin yüksək inkişaf templəri nəzərdə tutulmuşdu. Neft sənayesinə kapital qoyuluşunun həcmi əvvəlki beş il ərzindəki 432,5 mln. Manata qarşı 750 mln. manat məbləğində, başqa sözlə 1,7 dəfə çox nəzərdə tutulmuşdu. Yəni sovet İttifaqında bütün neft sənayesinin inkişafına qoyulan 1400 mln. manatdan Azərbaycanın payına düşən məbləğ onun yarısından artıq idi. Bu, hər şeydən əvvəl, Azərbaycanın "beynəlmiləl vəzifələri"ni yerinə yetirərək, Sovet İttifaqında 1932/33-cü təsərrüfat ilində çıxarılması nəzərdə tutulan 22 milyon ton neftin yarısından çoxunun verməsi ilə izah edilirdi (4, 275).

Bakı neftinin satışı nəticəsində əldə olunmuş küllü miqdarda maliyyə vəsaitlərindən səmərəli istifadə olunmaqla birinci beşilliyin ilk illəri ümidverici nəticələrlə qeyd olundu. Sənaye planları yerinə yetirilirdi, texniki tərəqqi və ölkənin iqtisadi müstəqilliyini təmin edən maşın və avadanlıqlar buraxan sahələr inkişaf edirdi. Fəhlələrin sayının artması müşahidə edilirdi (4, 280).

Lakin Stalin beşillik plana müdaxilə edir, nəzərdə tutulmuş planı artırırdı. O, ağır sənayenin sürətini beşillik planda təsdiq olunanla müqaisədə 32% artırmağa göstəriş vermişdi. Yeni nəzarət göstəricilərinin təsdiq olunmuş rəqəmlərdən fərqinin real əsasları yox idi və nəticədə beşillik plan tədricən pozulur (sitat götürülüb: 4, 281).

Azərbaycan neft sənayesi 1928-1929-cu təsərrüfat ilində Azərbaycanda birinci olaraq yenidən qurma işini əsasən həyata keçirmiş olan bir təsərrüfat sahəsi hesab olunurdu. Bu zaman Azərbaycan neft sənayesinin elə bir sahəsi yox idi ki, o müharibədən əvvəlki dövrün səviyyəsinə çatmamış olsun. 1929-1930-cu təsərrüfat ilində Azərbaycan neft sənayesində hasil edilən neftin miqdarı 1913-cü ildə çıxarılan neftdən 40% artıq idi. Həmin ildə SSRİ üzrə hasil edilən neftin 60%-ni yalnız Azərbaycan neft sənayesi verirdi (7, 18).

Əlavə edək ki, dünyanın texniki tərəqqi baxımından ən qabaqcıl kapitalist ölkəsi olan ABŞ-da neft hasilatı 1930-cu ildə 1929-cu ilə nisbətən 8,3% azaldığı halda, SSRİ-də neft hasilatı həmin müddətdə 30% artmışdı (7, 34).

Azərbaycan neft sənayesinin belə inkişafı nəticəsində Sovet İttifaqı 1931-ci ildə neft hasilatı üzrə dünya miqyasında ikinci, Avropada isə birinci yerə çıxmış oldu (7, 18-19).

Azərbaycan nefti çox mühüm iqtisadi və siyasi əhəmiyyətə malik idi. Artıq 1931-ci ildə SSRİ-də 22,4 mln ton neft çıxarılmışdı ki, onun 13450 min

tonu və ya 60 faizdən çoxu məhz Azərbaycan Respublikasının payına düşürdü (sitat götürülüb: 4, 283-284). Azərbaycan neftçilərinin ağır və fədakar əməyi və zəhmətləri sayəsində SSRİ neft çıxarılması üzrə dünyada ikinci yeri tuturdu. Lakin tək rəsmi inzibati-amirlik tələbləri və zəhmətkeşlərin fəal əməyi ilə daim uğur əldə etmək mümkün deyildi, belə ki, beşilliyin yerinə yetirilməsində çətinliklər, o cümlədən sənayeləşdirməni yüksək templə aparmaq üçün kapital qoyuluşu çatışmazlığı meydana çıxdı (4, 284).

**ƏDƏBIYYAT**


1. Дэниел Ергин, "Альпина Паблишер" Добыча: Всемирная история борьбы за нефть, деньги и власть. М: 2012, 944с
2. Məhəmməd Əmin Rəsulzadə, "Azərbaycan Cümhuriyyəti", Bakı: Elm, 1990, 116 s.
3. Майкл Брукс, Нефть и внешняя политика, Литература, М: Иностранной.1949, 175с.
4. Azərbaycan tarixi, VII cildlik , VI c, (aprel 1920 – iyun 1940), Bakı: Elm, 2008, 568s
5. Победа была бы невозможна без Бакинской Нефти. 60 – летию Великой Победы посвящается, tarixsiz və nömrəsiz bülletein
6. S. Abasov, Neft paytaxtı, Azərbaycan Uşaq və gənclər ədəbiyyatı nəşriyyatı, 1950, 70 s.
7. Əli Əliyev, Sovet hakimiyyəti illərində, Bakı: Azərbaycan neft sənayesinin inkişafı, Bakı, Azərnəşr, 1957, 71 s.
8. В.И. Ленин. Об Азербайджане, Баку: Азернешр, 1959, 218 с.
9. Q.H.Bünyadov. Bərpa dövründə (1921 – 1925 – ci illər) Azərbaycanda Sovet ticarətinin yaranması və inkişafı, Bakı: Elm, 1971, 129 s.


## РОЛЬ БАКИНСКОЙ НЕФТИ В ИНДУСТРИАЛИЗАЦИИ СОВЕТСКОГО СОЮЗА

**У.АЛИЕВА**

**РЕЗЮМЕ**

В восточном полушарии политические коллизии, связанные с нефтью, были наиболее драматичными. До войны Бакинская нефть была одним из важнейших элементов на мировом рынке. Но теперь эта нефть находилась в руках нового коммунистического правительства Советской России. В апреле 1920 года большевики вновь овладели Баку и немедленно национализировали нефтяные месторождения. В ноябре 1920 года Москва выдвинула новую политику предоставления концессий иностранным инвесторам. "Мы не можем своими силами восстановить нашу разрушенную экономику без зарубежного оборудования и технической помощи", – заявлял Ленин. Поэтому единственный способ был продавать нефть, особенно ту нефть, которая была накопленна в последние годы в Баку и получить все, что Советскому Союзу нужно для восстановления экономики.

**Ключевые слова:** Бакинская нефть, европейцы, Советский Союз

## THE ROLE OF BAKU OIL IN THE INDUSTRIALIZATION OF THE USSR

**U.ALIYEVA**

**SUMMARY**

In the Eastern Hemisphere, the collision between petroleum and politics was most dramatic. Before the war, oil of Baku had been one of the most important elements in the global market. But now, that oil was in the hands of the new communist government of the Soviet Union, in April 1920, the Bolsheviks recaptured Baku and promptly nationalized the oil fields. In November 1920, Moscow announced a new policy of offering concessions to foreign investors. "We cannot by our own strength restore our shattered economy without equipment and technical assistance from abroad," Lenin declared. So the only way was to sell the oil, especially the oil which was accumulated during the last years in Baku and get what Soviet Union needs for restoring economy.

**Key words:** Baku oil, Europeans, Soviet Union